HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 noyabr 2015-ci il

№0012 (12)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ XİN-NİN BAŞÇILARI BTQ DƏMİR YOLUNUN İŞƏ DÜŞMƏSİNİ MÜZAKİRƏ EDƏCƏKLƏR



Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun məlumatına görə, Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirləri ilin sonunadək Bakı-Tbilisi-Qars dəmiryol layihəsinin işə salınması məsələsini müzakirə etmək üçün görüş keçirəcəklər.

Noyabrın 27-də Bakıda Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə birgə keçirdiyi mətbuat konfransında Elmar Məmmədyarov deyib: “Biz bu dəmir yolunun tikintisini öyrənmək üçün Gürcüstana getməliyik. Ümid edirik ki, gələn il o, işləyəcək”.

Azərbaycan XİN-nin başçısı Bakı-Tbilisi-Qars dəmir yolunun böyük əhəmiyyəti olduğunu qeyd edərək, bu məsələnin müzakirəsi üçün ilin sonunadək nazirlərin üçtərəfli görüşünün razılaşdırıldığını bildirib.

## GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ DEKABRIN ƏVVƏLİNDƏ AZƏRBAYCANA SƏFƏR EDƏCƏK

Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli iki ölkə arasındakı əməkdaşlıq məsələlərinin müzakirəsi üçün dekabrın əvvəlində Azərbaycana səfər edəcək. Bu barədə Trend informasiya agentliyinə noyabrın 19-da Gürcüstan səfirliyində məlumat veriblər.

Xidaşeli səfəri çərçivəsində azərbaycanlı həmkarı Zakir Həsənov və ölkənin digər rəsmi şəxsləri ilə görüşlər keçirəcək.

Bakıya səfər edənədək Gürcüstan müdafiə naziri Kanadada, ABŞ-da olacaq, eləcə də Avropada danışıqlar aparacaq.



TERROR OLAYLARI BARƏDƏ BİR NEÇƏ SÖZ — 2

TARİXİMİZİN VARLIĞINI QORUYAN MƏKAN — 3

DOĞRUNUN YANINDA OLA BİLMƏYƏNLƏRƏ — 4

TARIMA ÇƏKİLMİŞ RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏBİR BAXIŞ — 5

İBADƏTƏ NƏ QƏDƏR DƏYƏR VERİRİK? — 6

BÖYÜMƏK BURULĞANI — 7

## TBİLİSİDƏ “ŞƏRQ TƏRƏFDAŞLIĞI” PROQRAMI ÜZRƏ GÖRÜŞ KEÇİRİLİB



Gürcüstanda “Şərq tərəfdaşlığı” proqramının iştirakçısı olan ölkələrin xarici işlər nazirlərinin 6-cı qeyri-rəsmi görüşü keçirilib.

Görüşün yekunları ilə bağlı keçirilmiş mətbuat konfransında Gürcüstanın xarici işlər naziri Georgi Kvirikaşvili bəyan edib ki, xarici işlər nazirlərinin Tbilisi görüşündə son illər “Şərq tərəfdaşlığı” ölkələrinin iştirakı ilə həyata keçirilən bir sıra beynəlxalq layihələrin, o cümlədən nəqliyyat, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Avropa Qonşuluq Siyasəti və Genişlənmə üzrə komissar Yohannes Han isə Gürcüstanda həyata keçirilən islahatları alqışlayıb.

Gürcüstanın xarici işlər naziri Georgi Kvirikaşvili açıqlamasında görüşdə Avropa İttifaqının bir həftə əvvəl bəyan etdiyi “Qonşuluq üzrə yeni siyasətdə Şərq tərəfdaşlığının rolu” adlı sənədin müzakirə olunduğunu söyləyib: “Biz bu barədə planı və “Şərq tərəfdaşlığı”nın bundan sonra inkişafını müzakirə etdik. Bu, ən əsas məsələ idi. Biz həmçinin regionda baş verən hadisələri və tərəfdaş ölkələrlə Aİ formatında əməkdaşlığı müzakirə etdik”.

## GÜRCÜSTAN DAXİLİ İŞLƏR NAZİRİ AZƏRBAYCANA SƏFƏR EDİB



Azərbaycan daxili işlər naziri Ramil Usubovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Giorgi Mqebrişvili Azərbaycana rəsmi səfər edib.

Azərbaycan prezidenti İlham Əliyev Gürcüstanın daxili işlər nazirini qəbul edib.

Regionda təhlükəsizliyin təmin olunmasında ölkələrimizin müvafiq orqanlarının əməkdaşlığının əhəmiyyətini qeyd edən İlham Əliyev bu istiqamətdə əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini vurğulayıb.

G. Mqebrişvili isə hüquq-mühafizə orqanları arasında əməkdaşlığa toxunaraq, xüsusilə dünyada terrorun və cinayətkarlığın hökm sürdüyü bir vaxtda ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmini qeyd edib. O, ölkəsinin Azərbaycanla mədəni və sosial sahələrdə də əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb.

Azərbaycanın daxili işlər naziri Ramil Usubov da Giorgi Mqebrişvilini və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ramil Usubov daxili işlər nazirlikləri arasında əməkdaşlığın, xüsusilə də transmilli cinayətkarlıqla mübarizə sahəsində birgə əlaqələrin, təcrübə və informasiya mübadiləsinin və yaradılmış normativ-hüquqi bazanın ilk növbədə dost və qardaş xalqların mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyini nəzərə çatdırıb.

Giorgi Mqebrişvili səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, transmilli mütəşəkkil cinayətkarlığa qarşı yalnız birgə səylərlə mübarizə aparılmasına dair Ramil Usubovun mövqeyini bölüşdüyünü, mehriban qonşu və yaxın dost olan Azərbaycanın daxili işlər orqanları ilə ölkəsinin müvafiq qurumları arasında əlaqələrin bundan sonra da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## *TERROR OLAYLARI BARƏDƏ BİR NEÇƏ SÖZ*

**Elə sabah-sabah ayağını çölə qoymaq istəyirsən ki, bir biləsən dünyada təzədən-köhnədən nə var, nə yox və ya ayıbda olsa çıxırsan ki, evdəki bir zənbil uşağa, bir çətən külfətə hardansa bir tikə ruzi tapıb gətirəsən, bir də baxırsan, xeyir-söyləməzin biri qarşına çıxdı. Nə qədər o yan, bu yan eləmək istəsən də, nə qədər yaxanı bu qır-saqqız olub yapışmış mərdüməzardan xilas etməyə çalışsan da olmur. Və naəlac bu çərənçiyə qulaq asmağa məcbur olursan. Və sənin uğuruna çıxmış bu zəhlətökən adam da hərif deyil, baxır ki, sən bala-bala yumşalıb onun verdiyi sualları cavablandırırsan. Həmsöhbətin bığaltı qımışıb, bax adamı beləcə undan yumşaq edərlər deyib, huş-guşla sənə qulaq asır. Hərçənd ki, o, bu fikrini səsli söyləmir, fikrindən keçirir. İllərin təcrübəsi ona sənin kimi neçələrini yumşaltmaq öyrədib, sayı-hesabı yoxdur.**

O, "a məllim, dünyanın işlərindən ağlın nə kəsir?" kimi ümumi bir sual verir. Və düşünürsən ki, balam, doğrudan bu dünyanın işləri hara gedir, axı? Dəlidən doğru xəbər, bu adamın sualına indi gəl cavab ver, görüm necə verirsən. Hərifin üzündəki kinayəni görüb cin atına minirsən və deyirsən ki, lənət şeytana, sabahın yenicə açılmasına baxmayaraq, pis yerdə axşamladıq. Amma bu mərdüməzarın qarşısında aciz qalmaq da bir kişilik deyil, açırsan sandığı, tökürsən pambığı. Sənin də qurdqranının ağızı açılır, nə açılır. Və başlayırsan dil boğaza qoymadan danışmağa. Deyirsən:

Rəhmətliyin oğlu, mən hardan bilim dünyanın işləri hara gedir? Belə cəhənnəmə gedir, qarayola gedir, biz dünyanı düzəldənikmi? Amma arada özünü də qınayırsan ki, bu biçarənin nə günahı var, qızışıb düşürsən üstünə. Sonra səsyin enindən bir balaca alıb deyirsən ki, canım-gözüm, bu dünyanı eləmi günə qoyublar, biləsən nə var, nə yox. İnsanları aclıqla təhdid edənlər, bir tikə çörəyini də zülümlə verənlər, indi də od yağdırmaqla məşğuldurlar. Dünyanın dörd bir yanında alovu ərşə dayanan müharibə tonqalları qalayıblar. Bu tonqalların nə vaxt sönəcəyi və ya nə vaxt söndürüləcəyi belə mümkünsüz görünür. Suriya deyilən bir çimdik yerdə neçə quruplaşma olar, neçə koalisiya qurular, neçə dövlətin başı Suriya qazanında qaynayar mən deyə bilmərəm. Balam, tifağı dağılmış Suriya terror yuvasıdır, ya elə terror quyusudur, bunu bir Allah bilir. İllərdir böyük güclərin hər mənada silahlandırdığı bölgə xalqları bir-birinin qanını içməkdədir. Şəxsən mən bilmirəm ki, Amerika burada nə itirib, nə axtarır, Rusiyanın əlimyandıda axtardığı nədir. Hamsı bir ağızdan bölgəni xilas etməyə, terrorun kökünü kəsməyə gəldiyini dilə gətirir. Adam utanır da bunlardan soruşa ki, bu adamlar niyə terrorçu oldular axı? Niyə bu terrorçu deyilənlərin sayı yağışdan sonra çıxan göbələk kimi günü-gündən artır? Axı deyəsən, xalqın dediyi yalan deyil. Deyəsən, elə bu terrorçuların istehsalı ilə siz özünüz məşğulsunuz, sizsiniz onları körükləndirən, əlinə silah verib onları bir-birinə qırdıran siz deyilmisiz, cənablar? Adam bunları deyə bilmir. Nədən ki, üz ətdəndir, adam utanır. Və bir də düşünür ki, bəlkə özləri insafa gəldi, bizim dediyimizə bir hacət qalmadı. Mən özümü bu son söylədiyim sözlərlə ovutmaq, qurduğum bu yalana inanmaq da istəyirəm. Düşünürsən ki, utanmağın başını buraxıb bu böyük güclərdən soruşacam ki, balam, gedib niyə xarabanızda oturmursunuz, gedin öz sərhədlərinizi qoruyun, qoymayın terrorçular sizin torpaqlara ayağını bassın, özləri bilərlər, qoy bir-birini məzhəb çatışmalarında qırsınlar. Sizə nə? Can onların, cəhənnəm Tanrının. Sizin guya gətirmək istədiyiniz demokratiya zəhrimar bir işə yaramır, axı? Milyonlarla insanın qanı axdı, milyonlarla insan didərgin düşüb, əsir-yesir qaldı, sizin dininiz-kitabınız bomba yağdır demir ki?

**Amma cənablar, buynuzsuz qoçun qisası buynuzlu yaramazda qalan deyil. Öz əlinizlə yaratdığınız terror qurumları özünüzə qənim kəsiləcək, hədəfə çatmayan bumeranqın geri qayıdıb sahibinin başına dəyməsini bilməyən də yoxdur. Artıq deyəsən, siz də bunun fərqindəsiniz. Fərqindəsiniz ki, idarəolunan xaos adlandırdığınız bu zəhrimar öz başınızda çatlayır. Başqalarının bədbəxtliyi üzərində qurmaq istədiyiniz xoşbəxtlik uzun sürə bilməz. Nədən ki, başqasına quyu qazanın həmin quyuya özü düşməsinə qoca tarix çox şahidlik edib. Mən bildiklərimi dedim. Bundan sonrasını özünüz bilərsiniz, sonra deməyin ki, bilirdi demədi.**

## GÜRCÜSTAN PATRİARXI İSLAMA ATILAN İFTİRALARA QARŞI ÇIXIŞ EDİB

Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlyanın moizələri həmişə gürcü cəmiyyətinin diqqətini özünə cəlb edə bilir. Bu moizələr yerli KİV-də geniş işıqlandırılır, siyasətçilər isə həmişə hətta bu moizələr siyasi xarakterli çətinliklərlə müşaiyət olunsa da, onların əsasında hərəkət etməyə çalışırlar.

II İlya öz moizələrində tez-tez Gürcüstanda, eləcə də dünyada baş verən əsas hadisə və proseslərə diqqət yönəldir. Onun bu dəfəki moizəsi Parisdəki dəhşətli terrora və müəyyən qüvvələrin ona dini cinayət rəngi vermələrinə aid olub. Bu qüvvələr "immanent qəddarlığın" guya islama məxsus olduğunu irəli sürürlər. Bir çox bloqerlər ifrata vararaq, az qala dərin inamlı bütün müsəlmanları zorakılığa meyllilikdə günahlandırırlar. Lakin Gürcüstan pravoslav kilsəsinin başçısı bu cür izahla kökündən razı deyil. O, hesab edir ki, bu cür izah yalnız ədalətsizlik deyil, həm də təhlükəlidir. Katalikos-Patriarx Fransadakı terror qurbanlarını xatırlayaraq, dindarları onlara dua etməyə çağırıb, qeyd edib ki, bunun islam dininə aidiyyəti yoxdur.



"Biz xeyirlə şərin bir-biri ilə mübarizə apardığı bir dövrdə yaşayırıq. Həmişə də belə olub, lakin son vaxtlar xüsusilə güclənib", – o, bildirib.

II İlya Misirdə Rusiya təyyarəsinin partladılması və Parisdə günahsız adamların güllələnməsi faciələrini xatırladaraq, baş verənləri islam dini ilə bağlamaq cəhdlərini rədd edib.

"Adamlar var ki, bunu dinlə, müsəlman dini ilə əlaqələndirirlər, əslində burada din deyil, məhz konkret adam öz qəddar iradəsini göstərir", – Katolikos-Patriarx bəyan edib.

## BGMİ-NİN QADINLAR ŞURASININ BOLNİSİDƏ TƏDBİRİ KEÇİRİLMİŞDİR



Noyabrın 26-da Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin təşkilatçılığı ilə Bolnisinin Kvemo Arçevani (Qoşakilsə) kəndində Quran dərsi almış qızlar üçün tacqoyma marəsimi təşkil edilmişdir..

BGMİ-nin təşkilatçılığı və dəstəyi ilə keçirilən tədbirin "Quran işığında qadın" bölümü mərasim iştirakçılarının diqqətini cəlb etmişdir.

Tədbirin açılışında ilk öncə Qurani Kərimədən müqəddəs ayə və surələr oxunmuşdur. Sonra isə BGMİ-nin Qadınlar şurasının sədri Lamiyə Hacıyeva mövzu ilə əlaqədar geniş şəkildə məruzə etmişdir. Daha sonra Gulnar Abdullayeva və Lamiyə Məmmədova İslam dininin qadına verdiyi mühüm önəm barədə tədbir iştirakçılarına məlumat vermişlər.

Tədbirdə Kvemo Arçevani (Qoşakilsə) kəndində Quran dərsi alan qız tələbələrin tacqoyma mərasimi təşkil olunmuş və onlar tacla mükafatlandırılmışlar. Tədbir bu mərasim üçün nəzərdə tutulmuş süfrə arxasında davam etdirilmişdir.

Elmar EMİNOV

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ DƏRNƏYİNDƏ SEMİNAR KEÇİRİLİB

Noyabrın 29-da Qardabani şəhərində fəaliyyət göstərən Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin ofisində "İslamı daha yaxşı tanıyaq" adlı seminar keçirililib. Bu barədə təşkilatın məsul əməkdaşı Hacı Hacıyev özünün Facebook səhifəsində məlumat verib.

Seminar Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin qadınlar şurasının sədri Lamiyə Hacıyevanın rəhbərliyi altında həyata keçirilib.

Hacı Hacıyevin məlumatına görə, seminar Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin təşkilatçılığı və Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin dəstəyi ilə baş tutmuşdur. Seminarın sonunda qonaqlar təşkil olunmuş çay süfrəsi arxasında fikir mübadiləsini davam etdirmişlər.

## QARDABANİNİN 7 KƏNDİ İNTERNETLƏŞDİRMƏNİN BİRİNCİ MƏRHƏLƏSİNƏ DAXİL EDİLİB

Gürcüstanın iqtisadiyyat və sabit inkişaf nazirliyi daimi internetləşdirmə layihəsinin həyata keçirilməsinə başlayıb. Layihənin dəyəri 150 milyon dollardır və Bidzina İvanişvilinin maliyyələşdirməsi ilə gerçəkləşdirilir. Layihənin məqsədi Gürcüstanın bütün regionlarının və kəndlərinin optik internet kabeli ilə təmin edilməsidir.

Layihənin birinci mərhələsinə əsasən, internet Gürcüstanın Acara, Quriya, İmereti, Kaxeti, Kvemo Kartli, Msxeta-Mtianeti, Raja-Leçxumi, Sameqrelo-Zemo Svaneti, Samtsxe-Cavaxeti, Şida Kartli regionlarında 500-ə yaxın kənd üçün əlçatan olacaq.

Birinci mərhələnin başa çatmasından sonra, internetdən istifadə edəcək 473 kənd arasında




Qardabaninin Qaratəhlə, Axalsamqori, Axalşeni, Kalinino, Lemşvaniera, Mzianeti və Naqebi kimi 7 kəndi də olacaq.

Layihə tam baş çatdıqdan sonra Gürcüstanın 2000 kəndi, ölkə əhalisinin ümumilikdə 91%-i internetə daxil ola biləcək.

# TARİXİMİZİN VARLIĞINI QORUYAN MƏKAN

*Bu yaxınlarda Qardabanidə gözəl bir muzeyin varlığından xəbər tutduğumu deməyim sizə qəribə gəlməsin. Az qala hər gün qarşısından keçdiyim binada İvane Cavaxişvili adına Qardabani tarix-diyarşünaslıq muzeyinin yerləşdiyinə hər dəfə fikir vermədən ötüb keçmişdim. Düzdür bu muzeydə nümayiş etdirilən eksponatların bir çoxu ilə mən iki-üç il əvvəl tanış olmağa imkan tapmışdım. Belə ki, təsadüfən Qardabani Mədəniyyət evində qatıldığım bir tədbirdə bölgəmizin tarixi ilə bağlı bir muzeyin açılışına da şahidlik etmişdim. Və sonra öyrənmişdim ki, Qardabani mədəniyyət evinin nəzdində yaradılan bu muzey hazırda yerləşdiyi binada təmir getdiyindən əslində yer dərdindən bura köçübmüş. Həmin vaxt çalışdığım "Varlıq" qəzetinə açılışında iştirak etdiyim muzey, daha doğrusu muzey-otaq barədə muzeyin direktoru Şaduri Şukvanidən aldığım məlumatlar əsasında bir xəbər də hazırlamışdım.*



Hörmətli oxucular, Qardabanidəki David Ağmaşenebeli-61 ünvanına yönünüz düşəndə mütləq ora baş çəkin. Nədən ki, tanıtmaq istədiyimiz tarix-diyarşünaslıq muzeyi məhz bu ünvanda yerləşir. Bəri başdan qeyd edim ki, bu məkanı ziyarət edənləri muzeyin əməkdaşları gülərüzlə qarşılayıb, yola salmaqdan yorulmurlar. Sözarası onu da qeyd edim ki, muzeydə 23 nəfər çalışır. Muzeydə öz işini bilən və ən ümdəsi isə işinə vurğun insanlar çalışırlar. Muzeyin direktoru Şaduri Şukvani ömrünü-gününü ölkəmizin tarixini əks etdirən maddi mədəniyyət nümunələrinin toplanmasına, qorunub saxlanmasına, onun təbliğ olunmasına həsr etmiş şəxslərdəndir. Belə ki, o, 1998-ci ildən bu muzeyin direktorudur. Muzey sahəsində 47 illik təcrübəyə malik olan cənab Şaduri muzeyin zənginləşdirilməsində əlindən gələni əsirgəməyib, müəssisəyə yeni eksponatların tapılıb gətirilməsində mühüm işlər görmüşdür.

Mənim muzeyə gəlişim xoş bir təsadüflə də üst-üstə düşdü deməyim qəribə səslənə bilər. Belə ki, muzeyin direktor müavini Manana Buluğaşvili sözarası bildirdi ki, noyabrın 29-da muzeyin 25 yaşı tamam olur. Söhbət əsnasında Manana xanımdan onu da öyrəndim ki, muzey 1990-cı ildə Uça Xarzianinin təşəbbüsü ilə yaradılıb. O vaxtdan indiyədək muzey böyüyərək, rayonumuzu ziyarətə gələnlərin baş çəkdiyi nümunəvi bir məkana çevrilib. Hazırda muzeyin iki şöbəsi – arxeologiya və etnoqrafiya şöbəsi fəaliyyətdədir. Buraya Qardabani sakinləri ilə yanaşı, ölkəmizin digər bölgələrindən də gələnlər olur. Rayonumuzun məktəbliləri də muzeyə tez-tez baş çəkərək, tarix dərslərində əldə etdikləri nəzəri bilikləri burada möhkəmləndirə bilirlər. Qardabani tarix-diyarşünaslıq muzeyinə ara-sıra əcnəbi turistlərin də yolları düşür. Bunu muzeyin rəy kitabına yazılan müxtəlif ürək sözlərindən də anlamaq mümkündür. Italiyadan, Almaniyadan, Litvadan, Azərbaycandan və digər yaxın-uzaq xarici ölkələrdən gələn turistlərin buradan könül xoşluğu ilə getdiklərini əminliklə söyləmək olar. Nədən ki, 200 kvadrat metrlik bu məkanda yaradılmış səliqə-səhman, burada nümayiş etdirilən 2500-dən artıq eksponat hər kəsin diqqətini cəlb etməyə layiqdir. Daş dövründən müasir çağımızadək bəşər övladının keçib gəldiyi tarixi yolu izləmək baxımından bu muzeyin müstəsna əhəmiyyəti olmasını bir daha altını cızaraq söyləyirəm.

Üstəgəl, Qardabani tarix-diyarşünaslıq muzeyinin üç filialı da fəaliyyət göstərir. Bu filiallar rayonun Norio, Martkopi, Sartiçala kimi yaşayış məntəqələrində fəaliyyət göstərir. Qardabaninin çoxetnik bir bölgə olduğunu nəzərə alan muzeyin əməkdaşları burada kiçik bir Azərbaycan guşəsi yaratmağı da unutmayıblar. Ancaq təəssüflə qeyd edək ki, bu guşədə çox az – cəmi 10-15 eksponat nümayiş etdirilir. Muzeyin əməkdaşları azərbaycanlılara məxsus tarixi-etnoqrafik materialları nümayiş etdirməyə hazır olduqlarını bildirərək, qəzetimiz vasitəsilə onları muzeylə əlaqə saxlamağa dəvət edir, keçmişin yadigarı hesab olunan əşyaları muzeyə təqdim etməyi xahiş edirlər. Biz də "Yeni yol" olaraq



ziyalılarımaza, bu işdə marağı olan hər bir kəsə müraciət edərək, muzeyin Azərbaycan guşəsinin zənginləşdirilməsində köməklərini əsirgəməməyə çağırırıq. Bundan sonra muzeyin azərbaycanlılar yaşayan kəndlərdən birində filialının açılması barədə də düşünmək olar. Söhbət etdiyimiz muzey əməkdaşları bu məsələnin həllində yardımçı olacaqlarını da bildirirlər. Düzdür, bunun hüquqi, maliyyə çətinlikləri də ola bilər. Amma istək olduqdan sonra istənilən çətinliyin öhdəsindən gəlmək mümkündür.

Sonda bir daha xatırladıram ki, yolunuzu hərdən bu gözəl məkana salmağı unutmayın. İnanıram ki, muzeyi ziyarət etmək sizdə xoş əhval-ruhiyyə, gözəl ovqat yaradacaq.

A .M. DƏLİVƏLOĞLU

# GÜRCÜSTANDA YAŞAYIŞ MİNİMUMU 163,3 LARİ TƏŞKİL EDİR

Gürcüstan Milli Statistika xidməti "Sakstat"ın məlumatına görə, 1 noyabr 2015-ci ildə Gürcüstanda yaşayış minimumu əmək qabiliyyətli kişilər üçün 163,3 lari, orta istehlakçı üçün 144,7 lari, orta ailə üçün 274,0 lari təşkil edib

1 oktyabr 2015-ci ildə isə Gürcüstanda yaşayış minimumu əmək qabiliyyətli kişi üçün 161,9 lari, orta istehlakçı üçün 143,4 lari, orta ailə üçün 271,6 lari olmuşdur.

1 yanvar 2015-ci ildə Gürcüstanda yaşayış minimumu əmək qabiliyyətli kişi üçün 159,4 lari, orta istehlakçı üçün 141,2 lari, orta ailə üçün 267,4 lari olmuşdur.

# "SEÇKİ MƏCƏLLƏSİ"İNDƏ DƏYİŞİKLİKLƏR LAYİHƏSİ PARLAMENTƏ TƏQDİM OLUNACAQ

"Seçki məcəlləsi"ndə dəyişikliklər layihəsi yaxın vaxtlarda Gürcüstan parlamentinə təqdim olunacaq.

Hüquq məsələləri üzrə parlament komitəsinin sədri Vaxtanq Xmaladze məlumat verib ki, düzəlişlərin işlək variantı hazırdır, lakin ayrı-ayrı məsələlər üzrə iş gedir, proses yaxın vaxtlarda başa çatacaq.

Söhbət 73 majoritar dairənin yeni bölünmə sxemi haqqında gedir. Bu, Konstitusiya məhkəməsinin qərarlarına uyğun olmalıdır. Majoritar dairələrdə 50%-lik hədd tətbiq olunması da nəzərdə tutulur.

Konstitusiya məhkəməsi səslərin bərabərliyi prinsipini pozduğuna görə majoritar seçki məntəqələrinin formalaşması qaydasının bələdiyyələrə bağlanmasını konstitusiyaya uyğun hesab etməyib.

# İYUL AYINDAN PENSİYALAR 20 LARİ ARTIRILACAQ

Gürcüstanın baş naziri İrakli Qaribaşvili 1 iyul 2016-cı il tarixindən etibarən pensiyaların səviyyəsinin 20 lari artırılaraq, 180 təşkil edəcəyini bildirib. Bu barədə Qaribaşvili noyabrın 27-də hökumətin iclasında bəyan edib. O, qeyd edib ki, hökumət pensiya islahatı üzərində də işləyir.

"Biz əvvəldən də demişik ki, bizim büdcə sosial yönümlü, insan yönümlü olacaq. Biz hər il bundan çıxış edərək, büdcəmizi planlaşdırırıq. Biz məhz bu istiqamətdə xərcləri artırırıq. Buna müvafiq olaraq gələn ilin büdcəsi də sosial yönümlü olacaq. Bu vəsait pensiyaların və pedaqoqların baza əmək haqqının artırılmasına, habelə yüksək dağlıq regionların inkişafına və digər tədbirlərə kömək etmək üçün nəzərdə tutulur", – baş nazir bildirib.

Qeyd etmək lazımdır ki, Vahid Milli Hərəkat bir qədər əvvəl, pensiyaların 50 lari artırılması tələbilə kampaniyaya başlamışdır. Parlament azlığı hesab edir ki, bunu mükafatlar hesabına bu gün də etmək mümkündür.

Xatırladaq ki, gələn il Gürcüstanda parlament seçkiləri keçiriləcək. Bu günkü vədləri "Gürcü arzusu" koalisiyasının seçkiqabağı kampaniyasının açılışı da hesab etmək olar.

# TÜRKSELL GEOSELL-Ə SAHİBLƏNMƏYİ DÜŞÜNÜR

"Blumberq"in məlumatına görə, Türkiyənin "Türksell" şirkəti Gürcüstanın mobil operatoru "Geosell"in indiki sahibi İsveçin "Telia Sonera" korporasiyasının satdığı "Ceosell"i almağı planlaşdırır.

Isveç korporasiyası hazırda Gürcüstan, Azərbaycan, Moldova və Qazaxıstanda mobil operatorların sahibidir. Bununla belə "Türksell" "Telia Sonera" ilə "Fintur" holdinqinin şərikli sahibidir, türk şirkəti səhmlərin 41,45%-inə, İsveç operatoru isə 58,5%-inə malikdir.

Türk şirkətinin başçısı Kaan Terzimoğlunun sözlərinə görə, "Geosell"in alınması haqqında danışıqlar həqiqətən də aparılır və razılaşmanın ilin əvvəlində baş tutması mümkündür.

"Bizim xarici bazarlara daxil olmaq haqqında üçillik proqramımız var və Gürcüstandan başqa biz Şimali Afrikada, Balkanlarda və Mərkəzi Asiyada aktivlər almağı planlaşdırırıq", – o, bəyan edib.

"Telia Sonera"nın postsovet məkanını tərk etmək niyyəti bu ilin sentyabrında rəsmi şəkildə elan olunub

# GÜRCÜSTAN HÖKUMƏTİ TÜTÜN VƏ ALKOQOL AKSİZLƏRİNİ YÜKSƏLDİR

Gürcüstan hökuməti tütün və alkoqolun aksiz dərəcələrini artırır. Müvafiq qanun layihəsi Nazirlər Kabinetinin iclasında baxılıb və yaxın vaxtlarda parlamentin müzakirəsinə veriləcək.

Müvafiq dəyişikliyin Gürcüstanın Vergi Məcəlləsinə daxil edilməsi nəzərdə tutulur. Layihə alkoqol və tütünün aksiz dərəcələrinin artırılmasını 2016-cı ilin yanvarın 1-dən nəzərdə tutur.

Məqsəd tütün üzərində nəzarəti gücləndirmək, Avropa qanunvericiliyinə yaxınlaşmaq, alkoqollu içkilərin aksizlərini optimallaşdırmaqdan ibarətdir.

Aksiz dərəcələrinin filtrli siqaretin hər qutusuna 20 tetri, filtrsiz siqaretin qutusuna 50 tetri, siqar və siqarellərin dənəsinə 40 tetri, qəlyan tütünü və çeynən tütünün 1 kiloqramına 5 lari artırılması planlaşdırılır.

Viski, rom, cin, şərab, etil spirtinin aksizləri 10 laridən 15 lariyədək və digər növ alkoqolların aksiz dərəcələri 10 lariyədək artırılır.

Son illərdə aksizlərin artırılması birinci dəfə baş vermir. Yanvarın 1-dən filtirli siqaretlərin hər qutusunun aksiz dərəcələri 15 tetri artaraq 90 tetri, filtirsiz siqaretlərinki isə 5 tetri artaraq 25 tetri təşkil edib.

Aksiz dərəcələrinin qalxmasını hökumət Aİ qarşısında üzərinə götürdüyü öhdəliklərlə izah edir.

Alkoqol və tütün istehsalçıları və idxalatçıları əmindirlər ki, Aİ-nin tövsiyyələrinin bura dəxli yoxdur, hökuməti yalnız büdcəyə daxil olmaların artması maraqlandırır, bu, məhsulun qiymətinin artması hesabına baş verir.

Sahibkarlar əmindirlər ki, tariflərin qaldırılması əhalinin sağlamlığının qayğısına qalmaq, siqaret və alkoqol istehlakını azaltmaq kimi məqsədlərə də heç cür kömək etmir. Onların sözlərinə görə, tütün məmulatlarının qiyməti artanda istehlak azalmır, siqaret çəkənlərin çoxu ucuz, daha doğrusu aşağı keyfiyyətli siqaretlərə keçirlər, bu isə son nəticədə həm büdcəyə, həm də vətəndaşların sağlamlığına ziyan vurur.



Cambul MƏMMƏDLİ
*cmemmedli@mail.ru*

## *DOĞRUNUN YANINDA OLA BİLMƏYƏNLƏRƏ*

**Son zamanlar Yaxın Şərqi barıt-qan qoxusu bürümüşdür. Artıq vəziyyət o dərəcədə gərginləşib ki, bəzi analitiklərə görə, hətta III Dünya müharibəsinin o məkandan başlayacağı bildirilir, bəzilərinə görə isə müharibə artıq başlamışdır. Müharibə təhlükəsini bir az daha da şiddətləndirən amillərdən biri də Türkiyə sərhədini pozduğuna görə Türkiyə silahlı qüvvələrinə məxsus F-16 tərəfindən bir neçə xəbərdarlıqdan sonra Rusiya Su-24 qırıcısının endirilməsi olmuşdur. Bu günlərdə bütün dünya mediasını az qala bu faktla ilgili xəbərlər məşğul etməkdədir. "Hər kəs öz arşını ilə ölçərək", bu olaya öz münasibətini bildirmişdir.**

İran İslam Respublikasının prezidenti cənab Həsən Ruhani rus təyyarəsinin vurulmasına görə, Türkiyəni ağır ittihamlarla günahlandıraraq, olduqca sərt sözlərlə tənqid edib. "Türkiyə fitnəkarlıq törədib. Bunun hüquqi nəticələri bu fitnəkarlığı başladan Türkiyənin üzərindədir." Bax, yəqin elə bu cür hallarda deyilir: "qatıq qaradır". Dövlətinin adında İslam sözünü yaşadan dövlət başçısının mövqeyinə bir baxın! Bu yekəlikdə yalan, vicdansızlıq olar məgər?! Aylardır ki, bütün dünyaya, o cümlədən Türkiyəyə əzələ nümayiş etdirən Rusiyaya kimsə cavab verməlidir, ya yox? Dəfələrlə sərhədləri pozulan bir dövlətin çoxlusayda uyarılarına məhəl qoymayan kimdir? Sərhədi pozulan dövlət hava məkanını qoruyursa təxribata kim getmiş olur?! Bəlkə Türkiyə gedib Rf-nın sərhədində at oynadır, onun ərazisinə soxulur?! Maraqlıdır, Rusiyanın sərhədi hər hansı bir dövlətin hərbi təyyarəsi tərəfindən pozulsa idi, Rusiya dövləti bunu necə qarşılayardı? Bağışlayardımı?. Sevimli dinimizi eybəcər şəklə salıb, öz iyrənc siyasi məqsədlərinə alət edənlər bir yana, bizim öz içimizdən də bəzi "burnunun ucundan o yanı görə bilməyənlərin" "Türkiyə Rusiyadan üzr istəməlidir" kimi məsələyə məntiqsiz yanaşmaları adama bir ayrı dərd olur, qeyzləndirir. Bu səbəbdən də bəzən içimdə üsyan edir, üzülürəm: Məhz ona görə də Yer üzündə bizi qədər pərişan olan, bir-birindən ayrı düşən, xəyal qırıqlığı içində yaşamını davam etdirən, keçmişi unutdurulan, tarixi, mədəniyyəti, haqları və s. dəyərləri başqaları tərəfindən qəsb edilən, haqlıykən haqsız duruma düşürülən, alçaldılan, adı unutdurulan, manqurtlaşdırılan, bəzən ikinci-üçüncü və daha aşağı "sort" millət kimi tanınan başqa millət yoxdur?!

Son zamanlar qüruruma toxunan bir məsələ də baş vermişdir: məlum Fransa olaylarına qədər çox-çox əvvəllərdən başlamış qətliamlar vardır ki, onlardan bəzisi hazırda da davam etdirilməkdədir. Onların içindən ən yenisini, – məsələn, türkmən qətliamını götürək. Öncə öz ata-baba yurdları Kərkükdə kütləvi şəkildə soyqırıma məruz qalan türkmənlər, indi də Suriyanın Bayır-Bucaq bölgəsində, Rusiya və İran(?) dövlətlərinin qəzəbinə düçar olub, onların birləşmiş hərbi birliklərinin hədəfinə çevriliblər. İran sevimli peyğəmbərimizin – "Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu təhlükədə tək buraxmaz" – buyruğunu beləmi yerinə yetirir!

**...İnsanın vaxtsız ölümü faciədir – qanı-qanından, canı-canından, dili-dilindən olan günahsız, mülki vətəndaşların kütləvi şəkildə qətliamı isə ikiqat zülmdür. Nədən bizlər bu məzlumların bayrağına bürünmədik, onu sıradan bir xəbər kimi qarşıladıq, Parisdə terror aktı baş verdikdə isə, humanistlik göstərib Fransız bayrağına sarındıq? Terror hər yerdə lənətlənməli, qınanmalıdır, lakin şəxsən mən bu cür "humanistliyə" də qarşıyam və qınayıram! Terror harada olmasından və kim tərəfindən törədilməsindən asılı olmayaraq, terrordur. Öz məzlum qardaşlarımızın kütləvi şəkildə qətliamına göz yumub, hər zaman hər vasitə ilə düşmənimizin mənafeyini güdüb, onların acısına hönkürməmizi əsla qəbul edə bilmirəm. Hər bir insanın böyük potensialı vardır, ancaq nə yazıq ki, bu potensialı əksər hallarda bir-birimizə qarşı işlətməkdəyik. Halbuki, "el bir olsa dağ oynadar yerindən, söz bir olsa zərbi kərən sındırar" – deyiblər!**

## RUSİYA BİRTƏRƏFLİ QAYDADA TÜRKİYƏ İLƏ VİZASIZ REJİMİ LƏĞV EDİR

RİA "Novosti"nin məlumatına görə, Rusiya xarici işlər naziri Sergey Lavrov bəyan edib ki, Rusiya 1 yanvar 2016-cı il tarixindən Türkiyə ilə vizasız rejimi dayandırır.

"Rusiya Federasiyası rəhbərliyi hazırda Rusiya və Türkiyə Respublikası arasında fəaliyyət göstərən vizasız rejimin dayandırılması haqqında qərar qəbul edib", – Lavrov bildirib.

Nazirin sözlərinə görə, Türkiyənin rusiyalılar üçün təhlükəsi "tam realdır".

Lavrov həmçinin bəyan edib ki, döyüşçülərinTürkiyə vasitəsilə müxtəlif istiqamətlərə yerdəyişməsi təşkil olunur. "Bizim böyük təəssüfmüzə rəğmən, bizim vətəndaşlarımıza aid olan bu məsələdə türk hakimiyyəti yumşaq desək, əməkdaşlıqda çox könülsüzdür", – nazir qeyd edib.

## SU 24-ÜN VURULMASI RUSİYA MÜDAFİƏ NAZİRLİYİNİN ƏMRİNİN NƏTİCƏSİDİR

Teref.info Rusiya KİV-lərinə istinadən xəbər verir ki,Su-24 ün vurulması cinayətkar əmrin nəticəsidir. Bir qrup Rusya hüquq müdafiəçisi Rusiya Hərbi Prokurorluğuna Rusiya Müdafiə Nazirliyinin vəzifəli şəxslərinə qarşı cinayət işi qaldırmaq tələbi ilə müraciət ediblər.

Konstantin Seleznyev, Valeriy Ostavnıx, Mixail Anşakov müraciətdə yazıblar:

" 293 cü maddənin nəzərdə tutduğu vəzifəli şəxslərin öz vəzifələrinə məsuliyyətsiz yanaşması və 285-ci maddə (vəzifə səlahiyyətlərini aşmaq) ilə onlara cinayət işi açmağı tələb ediblər. Onlar vəzifə səlahiyyətlərini aşaraq Suriyada əməliyyatlarda istifadə edilən təyyarələrdən tanınma nişanlarını çixartmaq, rus aviasiyasında qəbul olunmuş cağırış kodlarına cavab vermək, Türkiyə HHQ-nin tanınma çağırışlarına cavab verməmək haqqında əmr veriblər. Bu da Türkiyə HHQ-nin SU 24 bombardmançı təyyarəsinin kimə məxsus olmasını müəyyən etməsini mümkünsüz edib və bombardmançının vurulmasına əmr verilib."

Bununla da Rusiya hüquq müdafiəçiləri Türkiyə tərəfinin tam haqlı olduqlarını sübut ediblər.

## AVROPA İTTİFAQI ÖZ ORDUSUNU YARADIR



Avropa İttifaqına öz ordusunu yaratmaq lazımdır. Bu barədə Brüsseldə Avropa komissiyasının başçısı Jan-Klod Yunker bəyan edib.

"Mən deyəndə ki, Avropa ordusuna tərəfdaram, tənqid olunurdum. İndi bu qaçılmazdır və biz Avropanın real müdafiə siyasətini yaratmaq üçün çox maya qoymalıyıq", – Yunker deyib. O, həmçinin "İslam dövləti" terror qruplaşmasının Avropa üçün bir nömrəli düşmən olduğunu qeyd edib.

Yunkerin sözlərinə görə, İŞİD-lə mübarizə üçün ölkələr öz resurslarını birləşdirməli və gücləndirməlidirlər. O, vurğulayıb ki, bu məsələdə xüsusi xidmət orqanlarının sıx əməkdaşlığı vacibdir.

Bununla belə Yunker bildirib ki, terrorizm problem ilə miqrasiya böhranını qarşıdırmaq lazım deyil.

"Mən terrorizmi miqrasiya problem ilə bağlamaq istəmirəm. Onların ümumi əsasları yoxdur. Bu iki məsələni qarışdırmaq olmaz", – o, deyib.

Xatırladaq ki, bundan əvvəl Fransa prezidenti Fransua Oland beynəlxalq ictimaiyyəti fikir ayrılıqlarını unudub, İŞİD-ə qarşı geniş koalisiyada birləşməyə çağırmışdı.

## FRANSA PREZİDENTİ TÜRKİYƏ-SURİYA SƏRHƏDLƏRİNİN BAĞLANMASINI TƏLƏB EDİR

Fransa prezidenti Fransua Oland ekstremistlərin Avropaya daxil olmasının qarşısını almaq üçün Türkiyə-Suriya sərhədini bağlamağa çağırıb. Bu barədə Fransa prezidenti Ağ evdə ABŞ prezidenti Barak Obama ilə danışıqlarından sonra bəyan edib.

Oland bildirib: "Sərhədi bacardıqca tez bağlamaq lazımdır ki, heç bir terrorist Avropaya daxil olub barbar terror aktları törədə bilməsin".

Fransız lider hazırda Avropa İttifaqının "baş ağrısına" çevrilmiş mühacirlər problemi haqqında da danışıb.

"Suriya böhranı bu gün bütün Avropaya toxunur. Biz məcburuq etiraf edək ki, avropalılar üçün təhlükə böyükdür. Bununla əlaqədar Suriya böhranından çıxış tapmaq lazımdır", – Oland bəyan edib.

Xatırladaq ki, ABŞ və Türkiyə noyabrın 17-də Suriyanın şimal sərhədlərində tam nəzarət yaratmaq üçün birgə əməliyyatlara başlayıb.

## UKRAYNA PASPORTUNDAN RUS DİLİ ÇIXARILIR

Prezident Petr Poroşenko Ukrayna vətəndaşlarının pasportunda rus dilinin əvəzinə ingilis dilində məlumatın təkrarlanmasına tərəfdar olduğunu bildirir.

Bu barədə dövlət başçısının saytında Ukrayna vətəndaşına yalnız Ukrayna dilində (işğalçının dili olmadan) pasportun verilməsi haqqında petisiyaya cavabda qeyd olunur.

"Ukrayna vətəndaşının pasportunda Ukrayna Ali Radası tərəfindən qəbul olunmuş dövlət dilindəki məlumatın təkrarlanması ilə əlaqədar Ukrayna vətəndaşlarının hiddətini dəstəkləyirəm. İmza toplayanların vətənpərvərlik mövqeyini, habelə Ukrayna cəmiyyətinin Avropa İttifaqına inteqrasiyaya can atmasını nəzərə alaraq, hesab edirəm ki, Ukrayna vətəndaşının pasportunda dərc olunan məlumatın təkrarlanmasını rus dilinin yerinə beynəlxalq ünsiyyət dili kimi ingilis dilinin əvəz etməsi lazımdır", – Poroşenko qeyd edir.

Prezident Nazirlər Kabinetinə müvafiq tədbirlər görmək üçün qanunvericiliyə dəyişiklik edilməsini təmin etmək təklifi ilə müraciət göndərdiyini də bildirir.

## AMERİKA RƏMZLƏRİNİN İRAN BAZARINA DAXİL OLMASI MÜMKÜN DEYİL

Xalqın Amerika dəyərlərini qəbul etməməsi üzündən İran McDonald'sın bazarda mövcudluğuna imkan vermir. Bu barədə RİA Novostiyə müsahibəsində sənaye, mədən və ticarət nazirinin müavini Möctaba Xosroutac bəyan edib.

Sanksiyaların götürülməsindən sonra İran bazarına McDonald'sın daxil olmasının mümkünlüyü sualına nazir müavini belə cavab verib: "Mədəniyyət sahəsində fərqlərimiz, viza problemlərimiz, beynəlxalq məsələlərdə fərqli mövqeyimiz olduğu halda bu necə ola bilər?"

Xatırladaq ki, McDonald's 119 ölkədə 35 min məntəqəsi olan, gündəlik 68 milyon müştəriyə xidmət göstərən nəhəng restoranlar şəbəkəsidir.

## AZADLIQ MÖVZUSUNDA DÜŞÜNDÜKLƏRİM

İnsanlar elə bilirlər ki, dünyada köləlik tamamən ləğv olunub. Ancaq başlarının işlərinə həddindən artıq qarışmağı onlara, bu haqda düşünmək imkanı vermir. Axı necə düşünsünlər bu barədə? Bir halda ki, yaşadıqları həyat onlara düşünmək üçün mövzu seçimində məhdudiyyətlər qoyur, artıq onların da haqlı olduğunu etiraf etməkdən başqa çarə qalmır. Köləlik tamamən ləğv olunubmu, deyə bilərsiniz?..

Mən yanılsam belə burda öz rəyimi bildirə bilərəm: deyərəm ki, xeyir... deyərəm ki, əgər dünyada köləlik tamamən ləğv olunmuş olsa idi, insanlar sadəcə olaraq “dolanmaq” barədə deyil, bütün qlobal problemlər barədə, bütün lazımlı mövzular barədə düşünə bilərdilər. İnsanların başını qaşımağa vaxtı olmur, çünki ailəsinə təmiz ruzi, halal çörək aparmaq üçün əlləri çirkab içində, ağır zəhmətə qatlaşmalıdırlar. Axı çirkablı əlləri ilə başlarını necə qaşısınlar? Axı bu saç köklərinə ziyandır. Doğrudur, bunu etməzdən əvvəl əllərini yuya bilərlər, bu isə vaxt itkisi deməkdir. Mən onu da qeyd etmək istəyirəm ki, (məni səhv başa düşməyəsiniz deyə) çalışmaq köləlik deyil, çalışmaq azadlıqdır. Nə üçün, kimin üçün çalışdığını bilməməkdir köləlik.

Mənim bu barədə öz fikrimi bəyan etməyimə irad tuta bilərlər, əlbəttə, haqlıdırlar, çünki onlar kölə deyillər , əksinə azaddırlar, onların da söz azadlığı var. Ancaq bunu da nəzərə almalıdırlar ki, mən də azadam, söz azadlığı deyilən nemətdən mənim də faydalanmağa haqqım çatır. Ancaq hər kəs öz azadlığının sərhədini tanımalıdır. Başqalarının sərhədini tapdalayıb onun ərazisinə daxil olmaq azadlıq deyil. Yoxsa insanın quşunu havada ovlayarlar...

İndi isə bir az bu mövzunun sərhədlərindən kənara çıxaq (Yenə də xahiş edirəm, heç kim məni səhv başa düşməsin. Vizam da var, şəxsiyyət vəsiqəm də). İnsanların kitaba olan marağından danışaq: çox təəssüflər olsun ki, insanların bir çoxu kitab oxumurlar və ya oxumaq istəmirlər. Bu əslində yenə onların öz azad seçimləridir. Kitab oxuyanların isə bir qismi oxumağı müəyyən yaş həddindən sonra tamamən azaldır, hətta elə olur ki, tərk edirlər. Ən maraqlısı isə odur ki, kitab oxumağın tamamən mənasız olduğunu, vaxt itkisi olduğunu düşünürlər. Və tədricən öz azadlıqlarının sərhədlədrini daraldırlar.

Və başlayırlar növəti nəslin sərhədlərini də daraltmağa. Bunlar əsasən azad olmaq barədə düşünməkdən qorxurlar və başlayırlar bizi də çəkindirməyə. Görək öz azadlıqlarından tamamən istifadə etməkdə çətinlik çəkən insanlarımız bizə necə məsləhət verir: ayağını yorğanına görə uzat... Başından böyük işlərə girişmə və s... Nəticədə hamı bir-birindən eşitdiyini bir-birinə təkrarlayır. Birinin ayağı yorğanından bir az kənara çıxanda, digərləri həmən məşhur məsəli ona başa salıb öz borclarından çıxırlar. Biri də qalxıb demir ki, çalış yorğanını dəyiş ki, ayağını rahat uzada biləsən.

Vüqar VƏKİLOĞLU

## GÜRCÜSTAN SƏRHƏDDƏ VİZA REJİMİNİ GÜCLƏNDİRİR



Gürcüstan DİN-nin məlumatında bildirilir ki, Parisdəki terror aktlarından və “İslam Dövləti”nin Gürcüstanı video vasitəsilə təhdid etməsindən sonra ölkənin daxili işlər naziri Qeorqi Mqebrişvilinin göstərişi ilə dövlət sərhədinin bütün buraxılış-nəzarət məntəqələrində viza nəzarəti gücləndirilib.

Paturul polisinin əməkdaşları sərnişinlərlə müfəssəl söhbət aparır və onların səfərinin gerçək səbəblərini aydınlaşdırırlar. Gürcüstandan keçən tranzit sərnişinlərə xüsusi diqqət yetirilir ki, onlar Gürcüstandan keçərək, qeyri-leqal yolla digər ölkələrə daxil ola bilməsinlər. “Yuxarıda göstərilən prosedurlar beynəlxalq standartlara uyğun həyata keçirilir”, – DİN-də bildiriblər.

Yalnız noyabrın 14-dən 24-dək 479 nəfər əcnəbi vətəndaşın Gürcüstana daxil olmasına icazə verilməyib. Bu müddət ərzində sərhəd polisinin əməkdaşları Gürcüstanın quru sərhədlərini qanunsuz keçən bir Gürcüstan vətəndaşını və 31 əcnəbi vətəndaşı saxlayıblar. “Daxili işlər nazirliyi ölkə əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə fövqaladə rejimdə işini davam etdirir”, – DİN bəyan edib.

## GÜRCÜSTAN DÖVLƏT TƏHLÜKƏSİZLİK XİDMƏTİ GÜRCÜ DİLİNDƏ İŞİD SAYTININ MEYDANA ÇIXMASINI ARAŞDIRIR

Ölkənin Dövlət Təhlükəsizlik Xidməti “İslam dövləti”ni təbliğ edən gürcüdilli saytın meydana çıxması faktını araşdırır. Bu barədə Dövlət Təhlükəsizlik Xidməti başçısının müavini Levan İzoriya “Maestro” telekanalının efirində məlumat verib.

Parisdə baş vermiş terror aktlarından sonra Gürcüstanda bütün təhlükəsizlik tədbirləri gücləndirilib, o cümlədən də sərhədlərdə və aeroportlarda tədbirlər görülüb. Həmçinin strateji cəhətdən mühüm obyektlərin hamsında nəzarət gücləndirilib.

“Maestro” telekanalının efirində “Xilafət – İslam dövləti” gürcüdilli saytın skrinşot səhifəsi göstərilib.

“Bu səhifədən əlavə başqaları da mövcuddur, faktla bağlı istintaq başladılıb. Təbii ki, biz istintaq maraqlarından və əməliyyat tədbirlərindən çıxış edərək, onların fəal istifadəçilərinin kimlər olmasını müşahidə edirik. Lakin yaxın vaxtlarda biz bu cür saytların qadağan olunması üçün məhkəməyə müraciət edəcəyik”, – İzoriya deyib.

O, qeyd edib ki, Gürcüstan Dövlət təhlükəsizlik Xidmətinin məlumatları dəqiqləşdirməsi üçün sayta daxil olma məhdudiyyəti qoyulmayıb.

“İndi bizim müəyyən şəxslərə qarşı cinayət təqibinə başlamaq üçün əsasımız var”, – İzoriya bəyan edib.

## İSLAM DÖVLƏTİ TƏRƏFİNDƏ 50 GÜRCÜSTAN VƏTƏNDAŞI VURUŞUR

Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin başçısının müavini Levan İzoriya bildirib ki, Suriya ərazisində terrorçu “İslam Dövləti” tərəfində 50 Gürcüstan vətəndaşı vuruşur.

Onun sözlərinə görə, artıq onların barəsində cinayət işi açılıb və “onların fəaliyyəti haqqında konkret sübut varsa” istintaq aparılacaq. Bununla əlaqədar, terrorçular tərəfində vuruşan vətəndaşlar əgər Gürcüstana qayıdarlarsa, “qanun qarşısında duracaqlar”.

Xatırladaq ki, Parisdəki terror aktlarından sonra Gürcüstanın hava limanlarında və sərhədlərdə təhlükəsizlik tədbirləri gücləndirilmiş, şəxsi polis heyəti artırılmış və əlavə sərhəd hissələri səfərbər olunmuşdur.



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com



## TARIMA ÇƏKİLMİŞ RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ BİR BAXIŞ

**Türkiyə HHQ tərəfindən Rusiyaya məxsus təyyarənin vurulması dünya gündəminə bomba kimi düşdü. Ruslara aid hərbi təyyarə Suriyanın şimalında İŞİD-ə qarşı apardığı antiterror əməliyyati zamanı Türkiyənin hava sərhədlərini pozduğu üçün məhv edilmişdir. Tərəflərin bir-birini ittiham etməsi isə bu ölkələr arasında diplomatik münasibətlərin gərginləşməsinə gətirib çıxardı. Rusiya olayı “arxadan vurulan zərbə” adlandıraraq, Türkiyəni terrora dəstək verməkdə suçladı. Türkiyə isə özünün hava sərhədlərini qorumaq kimi süveren hüquqa malik olduğunu vurğuladı.**

Baş vermiş insidentin köklərini araşdırsaq görərik ki, Rusiya Suriyada hərbi əməliyyatlara başladıqdan sonra oktyabrın əvvəllərində bu ölkənin hərbi təyyarələri dəfələrlə Türkiyənin hava sərhədlərini pozmuş, bu barədə Ankara Kremli yetərincə xəbərdar etmişdir. Lakin Rusiyanın Yaxın Şərqdə itirdiyi mövqeyi bərpa etmək istəyi Türkiyənin qəti addımlar atacağını, Türkiyənin tokat vuracağını nəzərə almayıbmış.

Baş vermiş məlum təyyarə olayından sonra Rusiya Türkiyə ilə bütün sahələrdə olan münasibətlərinə yenidən baxacağı haqqında rəsmi açıqlama verdi və konkret addımlar atdı. Belə ki, Rusiyaya gəliş üçün türk vətəndaşlarına gələn ilin yanvarın 1-dən etibarən viza rejimi tətbiq ediləcək. Rusiya rəhbərliyi Turkiyəyə səfər turlarına qadağa qoyulması barəsində xüsusi göstəriş verib. Türkiyədən idxal edilən kənd təssərüffatı mallarına embarqo qoyuldu. Kreml Rusiya ilə Türkiyə arasında bağlanmış hökumətlərarası müqavilələri yenidən nəzərdən keçirəcəyinə dair açıqlamalar verməkdədir. Digər tərəfdən, baş vermiş hadisə ilə bağlı Türkiyə Rusiyadan fərqli olaraq səbrli davranmaqdadır. Cünki, Suriya məsələsində ayrı-ayrı mövqe tutmalarına baxmayaraq, bu ölkələr arasında güclü iqtisadi əməkdaşlıq mövcuddur. Son bir neçə ildə Rusiya ilə Türkiyə arasında ticarət əlaqələri sürətlə inkişaf etməkdə idi. Bü ölkələr arasında əmtəə dövrüyyəsi 2013-cü ildə 32 milyard, 2014-cü ildə isə 35 milyard olmuşdur. Həttа, 2020-ci il üçün bu göstəricinin 100 milyard dollara çatdırılması proqnozlaşdırılırdı. Türkiyə daxili qaz tələbatlarının 50 %-dən çoxunu Rusiyadan idxal etməkdədir.

Qərbin Rusiyaya qarşı tətbiq etdiyi embarqolar fonunda Türkiyə kimi iqtisadi portnyuru itirmək Moskva üçün ağılsızlıqdan başqa bir şey deyil. Görünür Rusiyanın hegomonluq ambisiyaları dövlətin iqdisadi maraqlarından üstündür. Düzdür, Türkiyənin Rusiya ilə iqtisadi bağları sıx olduğundan Moskva ilə münasibətlərin pozulmasının Ankaraya da ciddi zərbələri olacaqdır. Hər il 30 milyard dollar gəlir əldə edən Türkiyənin turizm sektorunda rus turistlərin çəkisi böyükdür. Belə ki, hər il Rusiyadan bu ölkəyə 4-4,5 milyon turist axını var. Bundan əlavə, artıq saxta erməni soyqırımının yasalaşdırılması üçün Rusiya Dövlət Dumasına qanun lahiyəsi də təqdim olunub. Bunu da beynəlxal münasibətlərdə Moskvanın qeyri-konstruktiv siyasət yürütməsinin bariz nümunəsi kimi qəbul etmək lazımdır. Bundan başqa, Türkiyənin yaralı yeri olan PKK ilə mücadilədə rusların terrorçu kürdlərə “yardım əlini” uzatmasına şübhə yeri qalmır.

**Hadisələrin axarı arzuolunmaz məcrada inkişaf etdiyi halda Türkiyənin də Kremlə qarşı adekvat addımlar atması ehtimal oluna bilər. Belə ki, Türkiyə Akkuyu atom elektrik stansiyasının tikilməsi üçün Rusiyanın atom enerjisi üzrə dövlət koorporasiyası olan Rosatom ilə bağladığı müqviləni dayandıra bilər. Ankara dövlət təhlükəsizliyi baxmından Bosfor və Dardanel boğazlarından rus hərbi gəmilərinin keçməsinə moratorium da tətbiq etmək məsələsini gündəmə gətirə bilər. Rus-türk münasibətlərinin normallaşması üçün Azərbaycan prezidenti İlham Əliyev vasitəçilik etməyə hazır olduğunu bildirmişdir. Azərbaycanın strateji partnorları arasında yaranmış siyasi gərginlik nəinki Yaxın Şərqdə, eləcə də Qafqaz regionunda siyası böhrana yol aça bilər. Çünki, Qafqaz tarix boyu həm Rusiya, həm də Türkiyə üçün xüsusi önəm daşıyan bölgədir.**



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

## İBADƏTƏ NƏ QƏDƏR DƏYƏR VERİRİK?

**Bu yaxınlarda evin eyvanında oturub ətafa baxırdım. Nədənsə diqqətimi ağacdan düşən yarpaq cəlb etdi. Düzdür bizlər üçün bu adi bir haldır və hər zaman baş verir. Bu düşən yarpaqlar məni bir daha dərin düşüncələrə qərq etdi. Bəli, payız gəldi. Təbiət soyundu. Bir yay fəsli də sona çatıb yerini payıza təhvil verdi. Məni düşüncəyə qərq edən isə bu oldu ki, bir mövsüm də bitdi, bəs mən nə etdim? Bu günləri necə yaşadım? Mənə Uca Allah tərəfindən verilən bu ömrü necə keçirdim? Bu keçən zaman Allahın istədiyi kimimi, yoxsa nəfsimlə əlbir olub məni uçuruma sürükləyən şeytanın istədiyi kimimi keçdi?**

Bu sırada "Mən insanları və cinləri mənə ibadət etsinlər deyə yaratdım" ayəti kəriməsi yadıma düşdü. Bu qədər zaman içərisində etdiyim ibadətlərə nəzər saldım. Ancaq Allahın istədiyi kimi bir həyat görmədim. Sadəcə simvolik hərəkətlə edilən ibadətlər var. Özüm özümü danlamağa başladım ki, səni varlıqların ən şərəflisi olaraq yaradan və yer üzündə hər bir şeyi əmrinə verən Rəbbinə təşəkkürün budurmu. Doğrusu özüm özümdən utandım.

Bəli, əziz dostlar! Uca yaradan bizləri bu həyatda ən üstün varlıq olaraq yaratdı, bunun qarşılığında isə bizdən cüzi bir şeylər istədi. Bu istəklər yenə də bizim xeyrimizədir. Bir din adamının dediyi kimi cənnət pulsuz, cəhənnəm pulladır. Biz cəhənnəmi özümüzə satın alırıq. Soruşacaqsınız bu necə olur. Çox sadə cavabı var. İçdiyimiz içki, etdiyimiz zina və başqa şeylər qarşılığında pul ödəyirik və beləliklə də cəhənnəmi satın almış oluruq. Cənnət isə doğruluqla, ibadətlə, zinadan, haramdan qaçmaqla qazanılır. Buradan açıqca ortaya çıxır ki, insanın yaradılış məqsədi və ilk vəzifəsi olan ibadət yalnız bəzi simvolik davranışları etməkdən daha geniş və daha əhatəlidir, xəlifəlik vəzifəsi də ibadət anlayışına daxildir.

O halda gerçək ibadət anlayışı iki ana qolda konkretləşir: 1. Allaha ibadətin mənasını ruhlara yerləşdirmək. Yəni düşüncəyə bunu qəti olaraq yerləşdirməliyik ki, ortada bir qul, bir də Rəbb vardır. Qul qulluq edər, Rəbbə isə ibadət edilər. Və bu varlıq aləmi bütünü ilə ikiyə ayrılar: Bir ibadət edən, bir də ibadət edilən. İbadət edilən Rəbb birdir. Və hər kəs Onun quludur. 2. İbadət, vicdandakı hər hərəkətdə, orqanların hər işləyişində, həyatdakı hər davranışda Allaha yönəlməkdir. Bütün davranışlar ilə səmimi olaraq Allaha yönəlmək, başqa hər cür duyğudan və Allaha ibadət etmə motivi xaricində hər şeydən sıyrılmaqdır. İbadət bu iki ünsür ilə birlikdə məna qazanar.

Və yenə ibadət anlayışının bir başqa gərəyi də, edilən əməllərin ruhlarda yer edən dəyərlərinin o əməllərin nəticələrinə görə deyil, səbəblərinə görə olmasıdır. Çünki o, bu əməlləri edərkən ibadət vəzifəsini yerinə yetirmək niyyəti ilə etməkdədir. Qurani Kərim, bu duyğunu insanın başını ruzi narahatlığı ilə məşğul olmaqdan və ruhun xəsisliklərindən qurtararaq bəsləyib gücləndirir. Ruzi onsuz da zəmanət altındadır. Allah qullarının ruzisini öz boynuna götürmüşdür. İnsanlara mallarını möhtaclara xərcləmələrini və yoxsullara öz mallarındakı haqqlarını vermələrini əmr etmişdir. İnsan bu üfüqə, ibadət ya da qulluq üfüqünə yüksəlib, orada yerləşsə, ruhu şərəfli bir hədəfi həyata keçirmək üçün sadə vasitələrə sarılmaqdan iyrənər və çəkinər. Çünki alçaq, əhəmiyyətsiz vasitələr ibadət kimi uca və təmiz duyğunu silərsüpürər. Qulu maraqlandıran məqsədlərə çatmaq deyil, ibadətin mənasını reallaşdırmaq üçün vəzifələrini yerinə yetirməkdir. Hədəflərə gəlincə bunlar Allaha həvalə edilmişdir.

**Ayrıca ibadət edən qul hər vaxt və hər vəziyyətdə, vicdanı rahat, ruh dincliyi və zehin rahatlığı içində olar. İstər etdiyinin nəticəsini görsün, istər görməsin. Nəticə istər ümid etdiyi kimi çıxsın, istər təxminlərinin əksinə çıxsın. İbadəti gerçək mənasıyla reallaşdırdığına görə, əməlini etmiş mükafatını almışdır. Artıq rahatdır. Bundan sonra olacaqlar, onun vəzifə sərhədlərinin xaricindədir... Çünki bilir ki, özü bir quldur. Başqa sözlə düşüncə və arzularında qul olmanın sərhədlərini aşmamalıdır. Və yenə bilir ki, Allah Təala aləmlərin Rəbbidir. Allahı maraqlandıran işlərə burnunu soxmamışdır. Bütün düşüncələri bu sərhəddə və bu nöqtədə tutar. Uca Allah ondan məmnun, o da uca Allahdan məmnun olar.**

## ALTERNATİV TİBBİN YENİ ÜNVANI

*Son dövrlərdə dünyada ənənəvi tibbin nailiyyətlərindən, xalq təbabətinin qaydalarından istifadə edənlərin sayı artmaqdadır. Sağlamlığının qədrini bilən oxucularımızın maraqla qarşılayacağını nəzərə alaraq, təbii və ənənəvi müalicə vasitələrini müasir texnologiyaların köməyi ilə müalicə proseslərinə gətirən, ölkəmizdə fəaliyyət göstərən tibb müəssisələrindən biri – "Professor Beridzenin Sağlamlıq Mərkəzi" barədə məlumat verməyi məqsədəuyğun hesab edirik.*

*"Professor Beridzenin Sağlamlıq Mərkəzi" Batumidə Gürcüstanın "Sanitas" tibb mərkəzinin bazasında fəaliyyət göstərir.*

*Mərkəzin məqsədi sağlamlığını bərpa etmək istəyən insanlara kömək göstərmək, xroniki xəstəliklərin qarşısını almaqda onlara yardım etməkdir. Insanlara sağlam həyat tərzi vərdişlərini və təbii sağlamlıq qaydalarını öyrətmək də mərkəzin əsas məqsədlərindəndir.*

Bu hummanist məqsədə nail olmaq üçün mərkəz sınaqdan çıxmış, elmi cəhətdən təsdiq olunmuş ümumi sağlamlıq metodlarını, eləcə də qədim xalq, ənənəvi (Çin, Tibet, hind, yapon) və alternativ tibbin müxtəlif sahələrində toplanmış biliklərdən istifadə edir.

Xroniki xəstəliklər əsasən orqanizimdə maddələr mübadiləsinin pozulması nəticəsində inkişaf edir ki, bu da ətraf mühitdə ekoloji vəziyyətin pisləşməsi və digər sivilizasiya problemləri ilə əlaqədardır. Mərkəzin yaradılması məhz bu konsepsiyaya əsaslanır. Kimyəvi dərmanlarla bu xəstəliklərin müalicəsi səmərəli deyil. Əksinə, kimyəvi dərmanlar "dərman xəstəlikləri"nin yaranmasına və digər ağırlaşmalara səbəb olur.

Mərkəz ambulatoriya prinsipi ilə işləsə də, gündüz stasionar prinsipdən də istifadə edir. Arzulayanlar müəyyən ambulator və ya ekoloji cəhətdən təmiz məhsullarla gündə üç dəfə qidalanmaqla gündüz stasionar müalicə kursu keçə bilərlər.

Sağlamlaşdırma prosesində yalnız təbii maddə və məhsullardan – gil, soda, hidrogen peroksid, bal, meyvə, tərəvəz, təbii şirələr, həmçinin ən yeni müalicə məhsullarından – krionanotexnologiya qaydaları ilə istehsal olunmuş bioimmun enerji tənzimləyicilərindən istifadə olunur.

Mərkəz məsləhətləşmə və təcrübə mübadiləsi məqsədilə analoji sağlamlıq mərkəzləri ilə əlaqə saxlayır. Mərkəzdə sağlamlıq kursu keçən hər kəsin həyatında böyük dəyişiklik yaranır, onurğa və əzələlərdə olan ağrılar azalır, zaman keçdikcə keçib gedir, qanda şəkər və xolesterinin səviyyəsi qaydaya düşür, turşu-qələvi mühiti və homeostazın digər göstəriciləri normallaşır.

Mərkəz mikro qan dövranının diaqnostikası və qanın ultrabənövşəyi təmizlənməsi (böyük müalicə əhəmiyyəti var, xroniki xəstəliklərin müalicəsində, eləcə də sonsuzluqda uğurla tətbiq olunur) üçün ən yeni aparatlara sahibdir.

Mərkəzə Batumi sakinləri, şəhərin qonaqları, eləcə də digər dövlətlərin vətəndaşları müraciət edə bilərlər. Qeydiyyat əvvəlcədən həyata keçirilir. Mərkəzdə müalicə təxminən iki həftə davam edir. Burada Mərkəzin ünvanını və əlavə bilgilər almaq üçün digər əlaqə vasitələrini də təqdim edirik. Mərkəz Batumi şəhəri, Qirboyedov küçəsi, 67 ünvanında yerləşir. (Telefonlar: 995 574 34 34 42, 995 577 40 68 58 və 995 56 89 49 və elektron poçt ünvanları: dr.aberidze39@mail.ru, rita50@mail.ru, kara-hasan53@mail.ru)



Mərkəzin direktoru Akaki Beridze tibb elimlər doktoru, professor, Gürcüstan ekoloji elmlər və proflaktik tibb akademiyasının akademiki, Gürcüstan sosial tibb elmlər akademiyasının akademiki, Ümumdünya cərrahlar assosiasiyasının üzvü, Avropa cərrahlar assosiyasiyasının üzvü, Avropa qastroenteroloqlar və qepatoloqlar assosiyasiyasının üzvü, Gürcüstan təxirə salınmaz cərrahlıq assosiyasiyasının prezidenti, Acara həkimləri ictimai birliyinin sədr müavini kimi müxtəlif elmi dərəcələrə və vəzifələrə sahibdir. 120-dən artıq elmi əsərin müəllifidir. Akaki Beridze dövrü mətbuatda mütamadi olaraq xalq təbabəti və alternativ tibbə dair elmi populyar yazılarla çıxış edir. S. Mçedlişvili ilə birlikdə bu məsələlərə dair "Hamı üçün sağlamlıq" kitabını nəşr etdirib.

Mərkəzdə çalışan işçilərin əksəriyyəti yüksək elmi biliyi və iş təcrübəsi ilə seçilir. Onlardan biri də Marqarita Xvadaqianidir. O, Batumidəki "Sanitus" tibbi bərpa mərkəzinin həkimi, Beynəlxalq Sağlamlıq və Uzunömürlülük Akademiyasının üzvüdür. Gürcüstanda "Sağlam məktəb" assosasiyasının yaradıcısıdır. "Təbii gigiyena" üzrə metodiki vəsaitin müəllifidir. 40 illik iş təcrübəsinə malikdir.

Tərəfimizdən onu da əlavə edək ki, eloğlumuz Avtandil Əliyev "Professor Beridzenin Sağlamlıq Mərkəzi"nin təlimatçısıdır.

A. ƏLİYEVA

## "CƏNUB QAZ DƏHLİZİ" ÜZRƏ KOORDİNASİYA ŞURASI YENİDƏN BAKIDA TOPLAŞA BİLƏR

"Cənub qaz dəhlizi" (CQD)layihəsinin reallaşdırılması üzrə Koordinasiya Şurası 2016-cı ilin fevralında yenidən Bakıda toplaşa bilər.

Azərbaycan energetika naziri Natiq Əliyevin məlumatına görə, CQD üzrə Koordinasiya Şurasının birinci iclası 2015-ci ilin fevralında keçirilib.

"Mən ikinci iclasın da Bakıda, ola bilsin ki, fevralda keçrilməsini təklif edəcəm", – Natiq Əliyev deyib.

Onun sözlərinə görə, müzakirə üçün bir çox, xüsusilə layihənin indiki vəziyyəti, qarşıda duran işlər, tranzit ərazilərdəki problemlərin həlli kimi məsələlər yığılıb.

"Hesab edirəm ki, Azərbaycanda, Gürcüstanda və Türkiyədə CQD üzrə işlərin yerinə yetirilməsi ilə bağlı heç bir problem yoxdur. Biz 2016-cı ildə CQD-nin üçüncü qovşağının – Transadriatik qaz kəmərinin tikintisinin də başlanmasını gözləyirik. Tikinti işlərinin yerinə yetirilməsi üçün bütün razılaşmalar əldə edilib, borular sifariş verilib. Bununla bağlı düşünürəm ki, CQD üzrə Yunanıstanda və İtaliyada işləri sürətləndirmək lazımdır", – Natiq Əliyev qeyd edib.

O, bu günlərdə CQD ilə bağlı məsələləri BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə prezidenti Qordon Birrell ilə müzakirə etdyini və SOCAR rəhbərliyi ilə görüşməyi də planlaşdırdığını əlavə edib.

## MƏKTƏB HƏYATINDAN SÖHBƏTİMİZİN DAVAMI VƏ YA İKİNCİ SÖHBƏT

*Qəzetimizin 10-cu sayında biz məktəblə bağlı bəzi məqamlara toxunaraq, onların bəzilərini müzakirə mövzusuna çevirmişdik. İctimai məktəblərdə çalışan pedaqoji kadrların maddi təminatı ilə bağlı fikirlərimizi söyləmişdik. Yaxın-uzaq ölkələrin müəllimlərinin maddi təminatını əks etdirən bəzi statistik məlumatları dəyərli oxucuların diqqətinə çatdırmışdıq. Bu xüsusda əlimizə yeni keçən bir məlumatı da verməkdən özümüzü saxlaya bilmirik. Gürcüstan Milli statistika xidmətinin tədqiqatlarına görə, ən aşağı əmək haqqı təhsil sahəsində çalışanların payına düşür. Belə ki, təhsil işçilərinin hazırkı əmək haqqı vur-tut 456 lari təşkil edir. Bank sektorunda çalışanların 1590, dövlət idarəçiliyində çalışan məmurların 1232, inşaat sahəsində külüng döyənlərin 1039 larilik donluğu ilə müqayisədə müəllimin qazancının 2-3 dəfədən az olmasını müəyyənləşdirmək üçün iqtisadçı olmağa belə gərək yoxdur. Görünən dağa nə bələdçi? Yəni demək istədiyimiz odur ki, müəllimin maddi təminatında əsaslı dönüş yaranmayacağı təqdirdə təhsil müəssisələrində hər hansı bir keyfiyyət dəyişikliyindən danışmaq da artıqdır.*

Sovetlərin çöküşündən sonra məktəblərə xeyli sayda qeyri-peşəkarların gəlməsi, müəllimlərin bir çoxunun zamanın inkişafından, dövrün tələblərindən geridə qalması, bir çox müəllimin intellektual səviyyəsinin şagirdin səviyyəsindən aşağı olması müəllimin olan-qalan nüfuzunu itirməsinə gətirib çıxardı. Bir zamanlar barmaqla göstərilən, başına and içilən, cəmiyyətin ən hörmətli üzvü sayılan müəllimin itirilmiş nüfuzunu bərpa etməsi get-gedə çətinləşir və bu gedişlə daha da çətinləşəcək. Şübhəsiz ki, təhsil müəssisələrində qazancın azına-çoxuna baxmadan ömrünü-gününü sözün istənilən mənasında şagirdlərinin gələcəyi yolunda şam kimi əridən, intellektual potensialı ilə ətrafdakıları heyrətləndirə bilən kifayət qədər müəllimlərimiz də yox deyil. Ölkəmizdə 100 mindən çox müəllimin gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olduğunu nəzərə alsaq, onda bu böyük ordunun necə nəhəng bir güc olmasını da gözümüz önündə canlandıra bilərik. Və bu böyük ordunu maddi sıxıntılar məngənəsində boğulmağa vadar etmək, onu təhsildən başqa istənilən xırda məişət qayğılarının burulğanına atmaq, cəmiyyətin ən taleyikəm hissəsinə çevirmək nə dərəcədə doğrudur kimi bir sualın cavabı harada gizlənib və ya biz bu suala cavabı harada axtarmalıyıq? Bizim bu sualı verib cavabını axtarışına çıxmaq istəyimiz eşitdiyimiz bir xəbərlə son buldu.

Belə ki, məhz noyabrın 27-də Gürcüstan hökumətinin iclasında 2016-cı ilin dövlət büdcəsi müzakirə olunarkən, baş nazir İrakli Qaribaşvilinin dilindən gələn ilin aprelindən ictimai məktəb müəllimlərinin maaşının 600-700 lari olacağının elanı diqqətdən kənarda saxlanıla bilməz. Və ardınca təhsil nazirimiz Tamar Sanikidzenin 2017-ci ildə pedaqoqların əmək haqları yenə artırılacaq kimi bir fikri səsləndirilməsi də ürəkaçan bir xəbər ola gərək ki? Gürcüstan hökumətinin müəllimləri yaddan çıxarmaması, ölkəmizin gələcəyinə qoyulan sərmayə kimi qəbul etmək olar. İnanırıq ki, elan olunmuş artımların ünvanına çatması ilə məktəblərimizdə təlimin keyfiyyətində pozitiv irəliləyişlər də olacaq.

İndi isə məktəblə bağlı söhbətimizin yönünü dəyişərək, təhsil ocaqlarının çətinliklərinə bir qədər başqa rakursdan nəzər yetirməyə çalışaq.

Müstəqilliyimizin elanından keçən illər ərzində məktəb ekspermentlər, təcrübələr, islahatlar meydanına çevrilib. Tədris ilinin bu başında, o başında yeniliklər adı altında tətbiq edilən, həyata keçirilən tədbirlər məktəbi dirçəltmək, ayağa qaldırmaq əvəzinə bəzən daha da çökdürür, daha da geriyə atır. Düzdür müəyyən məqamlarda yerinə düşən yeniliklərlə də rastlaşmamız mümkündür. Texnologiyaların məktəblər üçün prioritet elan olunması buna misal ola bilər. Artıq bir neçə ildir ki, birinci sinifə gələnlərə pulsuz fərdi bilgisayarların paylanması, onların texnologiyalarla ilk təmasının başlanğıcı rolunu oynamaqda və onlarda texnoloji vərdişlərin formalaşdırılmasında irəliyə doğru atılmış addımdır. Bundan əlavə şagirdlərin dövlət tərəfindən pulsuz dərsliklərlə təmin olunması da diqqətdən yayınmamalıdır. Düzdür, bu, dərsliklərin keyfiyyəti məsələsini qabartmamız və müzakirə etməmiz üçün sipər, maneə rolunu oynamamalıdır. Nədən ki, qeyri-gürcü məktəblərində dərsliklərin keyfiyyəti tam mənası ilə yarıtmazdır. Dərs vəsaitlərinin necə gəldi, başdansovdu tərcümə olunması dediklərimizə bir sübutdur. Həvəskar tərcüməçilərin, bəzən də artıq peşəkar tərcüməçi kimi tanınanların da tərcümələrində onlarla, bəzən yüzlərlə kobud qüsurlara rast gəlmək mümkündür. Biz bu məsələyə bir daha qayıtmaq niyyətində olduğumuzdan fikrimizi bu şəkildə tamamlamağı daha məqbul sayırıq.

Gələn yazılarımızda məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsil ocaqlarında mandatur – məktəb polisi təsisatının yaradılması və s. bu k. məsələləri dartışmaq, müzakirə etmək, bu xüsusda düşüncələrimizi bölüşmək niyyətimiz düşünürük ki, anlayışla qarşılanacaq.

A. MUXTAROĞLU

## PEDAQOQLARIN ƏMƏK HAQLARI APRELDƏN ARTIRILACAQ

Gürcüstanın baş naziri İrakli Qaribaşvili 2016-cı ildə müəllimlərin maşşının artırılacağını vəd edib. Onun sözlərinə görə, 1 aprel 2015-ci il tarixindən pedaqoqların əmək haqqının artırılmasının ikinci mərhələsi başlayıb, onların əmək haqqı 405 lari təşkil edir.

Qaribaşvili hökumətin iclasında bəyan edib ki, 2016-cı ilin aprelindən pedaqoqların orta aylıq əmək haqqı 600-700 lari təşkil edəcək.

Baş nazir alimlərin əmək haqqı barədə də danışıb və qeyd edib ki, "Gürcü arzusu"nun hakimiyyətə gəlməsindən sonra elm adamlarının əmək haqqı 300% artırılıb, elmi tədqiqat müəssisələrinin əməkdaşlarının əmək haqqı isə 600-700 lari təşkil edir.

Təhsil və elm naziri Tamar Sanikidze qeyd edib ki, nazirliyin büdcəsi artırılıb. O, bildirib ki, müəllimlərin maaşları 2017-ci ildə də artırılacaq.

## PEDAQOQLAR ÜÇÜN NATO HAQQINDA SEMİNAR KEÇİRİLİB

Gürcü müəllimlərinə "NATO – sabit və dinc inkişaf naminə seçim" mövzusunda seminar keçirilib. Seminar NATO-nun Gürcüstandakı əlaqələndirici ofisinin dəstəyi, NATO haqqında İnformasiya Mərkəzi və Aİ-nin təşkilatçılığı ilə keçirilir.

Layihə çərçivəsində iştirakçıları Müəllimlərin Peşəkar Milli İnkişaf Mərkəzi qəbul edib, orada onlar mərkəzin coğrafiya üzrə fənn məsləhətçisi ilə görüşüb və məktəblərdə qəza risklərinin azaldılmasına dair təlimlər barədə məlumat əldə ediblər.

Layihədə Tbilisi və Laqodexi məktəblərinin 30 coğrafiya, tarix və vətəndaş təhsili müəllimi iştirak edib. Seminarın məqsədi müəllimləri NATO-nun məqsəd və vəzifələri, NATO-Gürcüstan münasibətləri və qlobal təhlükəsizlik sisteminin yaradılmasında Gürcüstanın rolu barədə məlumatlandırmaqdır.

Layihə çərçivəsində Litvanın Gürcüstandakı səfiri Qiedryus Poudjyunasla, eləcə də beynəlxalq məsələlər üzrə ekspert Mixail Darçiaşvili ilə görüş də planlaşdırılıb. İnformasiya mərkəzinin direktoru Yelena Qotsadze iştirakçıları informasiya müharibəsinin xüsusiyyətləri, Gürcüstanın NATO-ya inteqrasiyası barədə yayılmış mif və gerçəkliklərlə tanış edib.

Gürcü məktəblərinin pedaqoqları üçün bu cür seminar artıq ikinci ildir keçirilir.

Afayət AFİQ



## BÖYÜMƏK BURULĞANI

**Həyatımız doğulmaq, böyümək və ölmək sözlərinin vəhdətindən ibarətdir. Birinci və sonuncunun nə olduğunu hər birimiz yaxşı bilirik, o dərəcədə ki, bunlarla bağlı nəsə yazmaq ən azından bu məqamda artıq olardı. Böyümək isə, hər zaman dəyişən danışmağa, yazmağa, çək-çevir etməyə açıq olan mövzulardan biridir. İnsan həyatı boyunca böyüyür. Hər zaman böyüyür. Son nəfəsinə, dəfn mərasiminə qədər böyüyür. Düşüncələrinizdə sual işarələrinin yaranacağını hiss edirəm və bunu anlaya bilirəm. Bu çoxumuz üçün bayağı mövzu sayıla bilər... Lakin, maraqlıdır. Çox maraqlıdır. İnsanın böyümə potensialı əslində ağıl sərhəddinə sığmayacaq qədər böyükdür.**

Yəqin hər kəs, heç tərəddüd etmədən, gözü qapalı uşaqlığın insan həyatının ən gözəl dövrü olması fikri ilə razılaşacaq. Tarix boyu bunun üçün müəyyən yaş dövrləri müəyyənləşdirilib və qəbul edilib. İnsan filan yaşda uşaq, filan yaşda gənc və ya qoca olur. Bu dövrlər dəqiq illərlə çərçivələnib və bir az da yazılmamış qanun rolunu oynamaqdadır. Lakin dünya bu, ümumiləşdirilmiş qaydaya sığmayan ayrı-ayrı milyardlarla fərdlərdən ibarətdir. Onun üçün də, böyümək hər kəs üçün eyni yaşa təsadüf etməyə bilər. Məsələn, insan nağılın biri varmış, biri yoxmuş hissəsində ikisinin də yox olduğunu anladığı anda böyüyür. Ölən insanın "uzaq"lara yox, kəndin o biri başına, torpağın altına yollandığını anladığı anda böyüyür. Şaxta babanın fırıldaqdan başqa bir şey olmadığını başa düşdüyü gün uşağın uşaqlığı ilə sağollaşmağa başladığı ilk gündür. Bəli, şaxta baba ilk ümidimizi sındıran ən böyük, ən parlaq yalanlardandır. Böyüyürük. Qəhramanlarımızın gözümüzdə kiçilməsi ilə bizim böyüməyimiz hər zaman tərs mütənasib olur. Heç şübhəsiz ki, sözünü etdiyim qəhrəmanlar yalnız nağıllarda, göy üzündə yaşamırlar. Onlara hər yerdə – evdə, qohumda, qonşuda da rast gələ bilərik. Biz özümüz kimlər üçünsə qəhrəman olduğumuz ana qədər böyüməyə, insanlarda insana aid olmayan güclər axtarmağa davam edirik. Və gün gəlib, özümüz də bütləşdirdiyimiz qəhrəmanların yerinə keçib, onların rolunu oynamağa başladığımız zaman kiçilməyə başlayırıq. Hər keçən gün kiçikliyimiz bir az da böyüyür.

Həyatı uydurmalarından, mövhumatlarından arındırıb qavraya bildiyimiz anda tam zirvədə sayılırıq. Ancaq indicə də dediyim kimi, bu dəfə də enişimiz böyüyür. Biz böyüməkdən heç zaman vaz keçmirik. Sevgimizdə böyüyürük, üzüntümüzdə, eqomuzda, kinimizdə, vəzifəmizdə böyüyürük. Bəzən uğurumuz, bəzən də bacarıqsızlığımız dayanmadan böyüyür. Kiminin əvvəli, kiminin axırı düşüncəsinə də sıx-sıx qərq oluruq. Yox, fəlsəfə açmaq ya da qəliz cümlələr yazaraq ağıllı görünmək fikrindən tam uzağam. Bəlkə də hələ tam böyüməməyimin günahıdır ki, başqa cür ifadə edə bilmirəm.

**Onsuz da, payımıza düşən həyat bizi hər şeydən bir az olmağa məcbur edir. Kimliyimizdən, dini, milli, irqi, sosial-mədəni vəziyyətimizdən asılı olmayaraq, hər birimiz bu və ya digər şəkildə hər şeydən, hər kəsdən bir az oluruq. Bir az müəllim, bir az filosof, bir az aktyor, bir az həkim, lap azca da insan... Əlbəttə ki, təsir miqyasımız və səsimizin çatdığı auditoriya isə bu vəziyyətin fərqlənən yeganə ünsürü olur...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 noyabr 2015-ci il
№0012 (12)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GÜRCÜ YAZIÇILARININ ƏSƏRLƏRİNDƏN İBARƏT TƏRCÜMƏ KİTABININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB



Noyabrın 19-da Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində müasir gürcü yazıçılarının “Bir pyes, on yeddi hekayə” toplusunun təqdimatı keçirilb.

Muzeyin direktoru Leyla Əliyeva bildirib ki, yazıçı-jurnalist Nəriman Əliyevin tərcümə etdiyi pyes və hekayələr Azərbaycan və gürcü xalqları arasında mədəni əlaqələrin inkişafında irəliyə atılmış bir addımdır.

Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin və Azərbaycan-Gürcüstan “Varlıq” Mədəniyyət Mərkəzinin sədri Rafiq Hümmət qeyd edib ki, N.Əliyev “Gürcüstan” qəzetində işlədiyi dövrlərdə də Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin inkişafına xidmət edib. Onun tərcümə etdiyi pyes və hekayələr əsasən bu günümüzün reallıqlarını əks etdirir.

Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev deyib ki, gürcü yazarların əsərlərinin Azərbaycan dilinə, eləcə də Azərbaycan ədəbiyyatı nümunələrinin gürcü dilinə tərcümə olunması diqqətəlayiq hadisədir. Gürcüstanın Barış və Vətəndaş Bərabərliyi məsələləri üzrə dövlət nazirinin müşaviri Zaur Dargallı çıxışında toplunu ölkələrimiz arasında qurulan yeni dostluq körpüsü adlandırıb.

Bildirilib ki, Qela Dumbadzenin kitabda yer alan “Gecə qonağı” pyesi “Yuğ” teatrı tərəfindən tamaşaya qoyulub. Tamaşanın yaxın vaxtlarda Tbilisidə də nümayiş etdirilməsi nəzərdə tutulub.

Nəriman Əliyev bu əsərləri tərcümə etməkdə məqsədinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına xidmət etmək olduğunu vurğulayaraq, təqdimat mərasiminin təşkilində əməyi keçən hər bir kəsə təşəkkürünü bildirmişdir.

## ASTEROİD TÜRKLƏRİN VARLANMASINA KÖMƏK ETDİ

Sentyabrın 2-dəTürkiyə ərazisinə düşən asteroid qəlpələri yerli əhalini varlandırıb. Ona olan tələbat çox yüksəkdir. Hazırda “səma xəzinəsi”nin axtarışına gəlmələr də qoşulub.

Türkiyənin Bingöl vilayətinin Sarıçiçək kəndi yaxınlığına meteorit yağışı yağıb. Səmadan Vesta asteroidinin qəlpələri düşüb. Bu yeganə asteroiddir ki, böyüklüyünə, səthinin parlaqlığına, həm də Yerə 177 milyon kilometr yaxınlaşa bilməsinə görə aydın gecədə Yerdən adi gözlə görünür.

Qəlpələr yerə düşdükdən sonra yerli əhali kolleksiyaçılara və alimlərə satmaq üçün onları toplamağa girişib. Bloomberg-in məlumatına görə, alıcıların əksəriyyəti Almaniya, Fransa, İsveçrə və Rusiya vətəndaşlarıdır. “Səma daşları”nın bir qramının qiyməti 60 dollar səviyyəsində dəyərləndirilir. Hal-hazırda ən böyük tapıntı 1,5 kiloqramdır və onu daha baha qiymətə satmaq mümkündür. Kəndin sakinləri artıq ümumilikdə bir milyon lirəlik (350 min dollar) kosmik qəlpə sata biliblər. Hökumət asteroid satışına vergi tətbiq etməyi düşünsə də, əhali bu ideyanı dəstəkləməyib.



Öz uğurları barədə danışan adamlar qəlpələri “Allahın hədiyyəsi” adlandırıblar. “Allahın hədiyyəsi” bölgəyə yeni xəzinə axtaranların gəlməsinə də səbəb olub. Bu günlərdə kəndin sakinlərinə ölkənin ayrı-ayrı bölgələrində sığınacaq tapmış ən azı 40 suriyalı qaçqın ailəsi də qoşulub. Onların sözlərinə görə, asteroid qırıntılarının satışı onlara vətənlərinə qayıtdıqdan sonra yeni evlər tikməkdə kömək edəcək.

**BİLDİRİŞ**

“Alyar” MMC-nin ləğv olunması baş verib. Kreditorlardan və digər maraqlanan şəxslərdən xahiş edirik ki, kooperativin: Qardabani, Candar kəndi – hüquqi ünvanına müraciət etsinlər.

email: aliar@mail.ru
Telefon: +995 557 32 22 04

**განცხადება**

გაუქმდა შპს „ალიარ“. კრეტიდორებსა და სხვა დაინტერესებულ პირებს ვთხოვთ, მოგვმართონ კორფორაციის იურიდიულ მისამართზე: გარდაბნის რაიონი, სოფელი ჯანდარა.

ელ-პოსტა: aliar@mail.ru
ტელ: +995 557 32 22 04

## YENİ NƏŞRLƏR

### İBRAHİMXƏLİLİN YENİ KİTABI ÇAPDAN ÇIXIB




Şair, publisist İbrahimxəlilin “Ucqar havası” poeziya kitabı çapdan çıxıb. Bakıda, “Vətən” nəşriyyatında çap olunan kitabda müəllifin 200-dən çox şeiri toplanıb.

İbrahimxəlil Məhəmmədəli oğlu Tamıyev 1957-ci ildə Gürcüstanda anadan olub. Ali təhsilini Bakıda alıb. İxtisasca filoloqdur, uzun illər müəllimlik edib. Hazırda Marneulidə nəşr olunan “Regionpress” qəzetinin əməkdaşıdır. 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Dörd övladı var. Bolnisi rayonunun Kazreti qəsəbəsində yaşayır.

İbrahimxəlil “80-ci illər” ədəbi nəslinin nümayəndələrindəndir. “Cəllad günü”, “Yar”, “Durna diasporu”, “Əyriqarda kim qaldı?” kitablarının müəllifidir.

Yazıları “Gənclik”, “Ulduz”, “Azərbaycan”, “Xəzər”, “Şans”, jurnallarında, “Gürcüstan”, “Yeni Azərbaycan”, “525-ci qəzet”, “Kaspi”, “Ədalət”, “Ekspress”, “Sənət” qəzetlərində, “Mediaforum.az” saytında və s. dərc olunub.

İbrahimxəlilin vaqiflərə ünvanlanan zərif poetik duyğuları, özünəməxsus mövzuları, dağ havası qədər, dəniz havası qədər yaxın olan şair havası-ucqar havası həmişə ruhları və diqqətləri çəkməkdədir.

## TBİLİSİDƏ “MASKA 2015” TƏLƏBƏ TEATRLARI FESTİVALI KEÇİRİLİB

Tbilisi beynəlxalq “Maska 2015” həvəskar tələbə teatrları festivalı noyabrın 30-da Gürcüstan paytaxtında start götürüb. Bu barədə Tbilisi meriyasının mədəni tədbirlər mərkəzi məlumat yayıb.

Festivalda Gürcüstan, Türkiyə və Latviyanın tələbə teatr kollektivləri iştirak edirlər. “Maska 2015”də Gürcüstanın teatr yaradıcılığını Tbilisi, Batumi və Kutaisinin tələbə kollektivləri təmsil edəcək.

“Festivalın əsas məqsədi universitet tələbələrinin qarşılıqlı münasibətlərinin, təcrübə mübadiləsinin və gələcəkdə peşəkar, yaradıcılıq əlaqələrinin yaradılması və bütövlükdə gürcü incəsənətinin təbliğ olunmasıdır”, – məlumatda bildirilir.

Iştirakçıların tamaşalarını on nominasiyada tərkibinə aktyor Camal Qaqanidze, aktyor Lela Meburişvili, rejissor Qoqi Totadze, Nika Sulikidze və digərlərinin daxil olduğu münsiflər qiymətləndirəcəklər.

Tbilisi beynəlxalq “Maska 2015” həvəskar tələbə teatrları festivalı ənənəvi olaraq mədəni tədbirlər mərkəzinin dəstəyi ilə keçirilir.

Bu il festival Tbilisi Tibb Universitetinin teatr salonunda keçirilir. Tədbir dekabrın 10-dək davam edəcək.

“Maska” festivalı ilk dəfə 2012-ci ildə keçirilib.

Təsisçi:
“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.